*Layihə*

# 2022-ci il üçün ADR Partiyasının Fəaliyyət Proqramı

Fəaliyyət proqramı özündə aşağıdakı istiqamətləri əks etdirir:

## 1) Təşkilatlanma.

**Hədəf:** Partıyanın idarəetmə orqanlarını daim təkmilləşdirmək, Azərbaycanın əksər rayonlarında Partiyanın yerli (rayon, şəhər və özək) təşkilatlarını (özəklərini) qurmaq və inkişaf etdirmək, gənclər və qadın qolunu gücləndirmək.

**Məqsəd:** Partiyanın dövlət qeydiyyatına nail olmaq və onun təşkilati gücünü artırmaq.

**İcraçı:** Təşkilati məsələr üzrə müavin

Təşkilatlanma işi 2 istiqamətdə aparılacaq. Üfüqi istiqamətdə təşkilatlanma mərkəzi strukturlar, şaquli istiqamətdə təşkilatlanma isə rayonlar (özəklər) üzrə aparılacaq.

Üfuqi istiqamətdə formalaşacaq təkilatlara İdarə Heyəti, İcra Aparatı, Ali Məclis və onun nəzdində fəaliyyət göstərəcək katiblik və komissiyalar daxi olacaq.

Şaquli istiqamətdə təşkilatlanma rayon təşkilatlarını, gənclər qolu, qadınlar qolu və özəklərini əhatə edəcək. Bu istiqamətdə fəaliyyət iki mərhələrə bölünür və bütöv ili əhatə edir.

Birinci mərhələ yanvarda başlayaraq ilin 1-ci yarısında başa çatır, Azərbaycanın 2/3-ü əhatə etməyə, ikinci mərhələ 2022-ci ilin iyul ayından başlayır ilin sonunda başa çatır və ölkə ərazisinin 90 faizindən çoxunda ADR Partiyasının rayon (şəhər) təşkilatlarının, gənclər qolunun, qadınlar qolunun və özəklərinin yaradılması ilə başa çatdırılır.

Bununla yanaşı ADR Partiyasının gənclər və qadınlar qolunun gücləndirilməsi də fəaliyyət prioritetinə çevriləcək.

## 2) Şəbəkələnmə.

**Hədəf:** ADR Partiyasını tanıtmaq, yerli və beynəxalq ictimaiyyətdə Azərbaycanın əsas siyasi qüvvələrindən biri kimi qəbil etdirmək.
**Məqsəd:** Yerli və beynəlxalq ictimaiyyətin diqqətini ictimai şüurun formalaşması və yönləndirilməsində ADR Partiyasının xüsusi əhəmiyyətli roluna cəlb etmək.
**İcraçı:** Demokratik təsisatlarla iş və ictimaiyyətlə əlaqələr üzrə müavin, Türk dünyası ilə əlaqələr üzrə müavin
Bu istiqamətdə əsas fəaliyyətləri yerli və beynəlxalq ictimaiyyətlə, xüsusilə də, türk dünyası ilə əlaqələrin qurulması, eləcə də ənənəvi və sosial mediada iştirakçılığın artırılması təşkil edir.
Əhalinin maariflənməsinə və ictimai-siyasi şüurun artımına nail olmaq üçün BİZ TV-nin və digər youtube kanallarının imkanlarından maksimum faydalanmaq nəzərdə tutulur. Facebook və Twitter də ölkədəki ictimai-siyası və sosial-iqtisadi sahədəki hadisə və proseslərə dair mövqelərin dərc edilməsi, insan haqlarının pozulması və azadlıqların məhdudlaşdırılmasına dair etiraz bəyanatarının və mövqe sənədlərinin işlənilməsi bu istiqamətdə görüləcək əsa fəaliyyətlərdən hesab olunur. Bununla yanaşı, ADR Partiyasının internet səhifəsinin yenidən qurulması, məzmunun təkmilləşdirilməsi və operativliyinin artırılması nəzərdə tutulur.
Partiyanın mövqeyinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün aparıcı qlobal və regional institutlarla, xüsusilə də Türk dünyasında fəaliyyət göstərən siyasi və sivil toplum qurumları ilə əlaqələr qurulur və onlar daimi olaraq partiyanın aylıq bülletenləri ~~ilə~~ və hesabatları ilə məlumatlandırılır.

### 3) Portfelləşmə.

**Hədəf:** Pariyanın mövcud proqramlarının müasirləşdirilmək və yeni konsepsiyaalarını işləmək.

**Məqsəd:** konseptual məsələlər üzrə Partiya~~nın~~ siyasətinin konturlarını hazırlamaq.

**İcraçı:** Strategiyalar və siyasətlər üzrə müavin

Bu il ADR Partiyasının proqram və konsepsiya protfelinin formalaşdırılması sahəsində də fəaliyyətlər planlaşdırılır. Bu fəaliyyətlər 2 hissəyə bölünür. 1. Mövcud proqram və konsepsiyaların müasirləşdirilməsi. 2. Yeni proqram və konsepsiyların işlənilməsi.

Mövcud proqramlar arasında əsas diqqət "Azərbaycanın Firavan Gələcəyi Naminə İqtisadiyyatda Əsas və Təxirəsalınmaz Tədbirlər Paketi Böhran əleyhinə 8 istiqamətdə 64 addım" və "Korrupsiya qarşı mübarizə üzrə 32 vacib addım" Planlarına yönəldilir və onlar müasir dövrün tələblərinə müvafiq şəkildə yeniləşdirilərək, ictimaiyyətə təqdim olunur.

Bununla yanaşı, təhsil, səhiyyə, ekologiya, yaşıl iqtisadiyyat və sosial inkişaf sahəsində yeni proqram və konsepsiyalar işlənilir.

### 4) İnteqrasiyalaşma

**Hədəf:** Hakimiyyət uğrunda birgə mübarizənin stimullaşdırılması.

**Məqsəd:** Partiyanın birgə fəaliyyət platformalarına iştirakını təmin etmək, oxşar mövqedə olan siyasi partiyalarla anti-Azərbaycan güclərə və antidemokratik hakimiyyətə qarşı birgə mübarizədə resursların mümkün mübadiləsinə nail olmaq.

**İcraçı:** Demokratik təsisatlarla iş və ictimaiyyətlə əlaqələr üzrə müavin

Bu fəaliyyət həm ölkə daxilində, ~~və~~ həm də xaricdə digər siyasi partiyalarla funskional əməkdaşlıq sahəsində birgə fəaliyyət mövzularını və platformaları müəyyənləşdirilir. Birgə fəaliyyət və əməkdaşlıq üçün konseptual olaraq Qarabağ, insan haqları və

azadlıqları, demokratiyanın inkişafı və avtoritarizmin zəiflədilməsi, korrupsiyaya qarşı mübarizə, şəffaflıq və hesabatlılığın artırılması, iqtisadi və sosial inkişaf müəyyənləşdirilir. Birgə fəaliyyət platformalarına seçkilərdə iştirak və ya ondan imtina, rus qoşunlarının Azərbaycandan çıxarılmasına üçün birləşmək, demokratiya, insan haqları və azadlıqlar üçün birgə aksiyaların keçirilməsi daxildir.

**5) Resurs potensialının artırılması**

**Hədəf:** Biznes, sahibkarlıq və özəl bölmə ilə yeni əlaqələrin qurmaq və mövcud əlaqələrin inkişaf etdirmək.

**Məqsəd:** Partiyanın yeni resurlara çıxışını təmin etmək.

**İcraçı:** Özəl institutlar və sahibkarlarla iş üzrə müavin

ADR Partiyasının proqramında nəzərdə tutulan liberal iqtisadiyyatın təşəkkül tapması sahibkarların, iş adamlarının və biznes təşəbbüsünə malik olanların siyasi proseslərdə aktivliyindən asılıdır. Bunun üçün Partiya iqtisadi azadlıqları dəstəkləyəcək, sahibkarların marağının müdafiəsinə yönələn təşəbbüslərlə çıxış edəcək, sahibkarlarla əlaqələri formalaşdıracaq, onların pozulan hüquqlarının bərpasına çalışacaq. Partiya azad sahibkarlığın problemləri ilə bağlı dəyirmi masalar, konfranslar təşkil edəcək, bu problemləri daim diqqətdə saxlayacaq.